# COĞRAFİYANIN TƏDRİSİ PROSESİNDƏ ŞAGİRDLƏRİN EKOLOJİ TƏRBİYƏSİNİN TƏŞƏKKÜLÜ

**Elnarə Seyidova,**
*fəlsəfə doktoru proqramı üzrə dissertantı*
*Naxçıvan Dövlət Universiteti*

**Rəyçilər:** *dos.* K. Camalov,
*dos.* V. Rzayev

***Açar sözlər:*** *coğrafiya, ekologiya, ekoloji tərbiyə, şagirdlərin ekoloji tərbiyəsi, ekoloji problemlər, ətraf mühit, kurikulum*

***Ключевые слова:*** *география, экология, экологическое воспитание, экологическое воспитание учащихся, экологические проблемы, окружающая среда, курикулум*

***Keywords:*** *geography, ecology, environmental upbringing, environmental upbringing of students, environmental problems, environment curriculum.*

XXI əsrdə bəşəriyyəti narahat edən bir sıra ciddi problemlər vardır. Bu problemlərdən biri də təbiət və cəmiyyət arasındakı ziddiyyətləri özündə əks etdirən ekoloji problemlərdir. Ətraf mühit və onun idarə edilməsi mürəkkəb sistemlərə və çoxsahəli idarəetmə strukturlarına malikdir. Bu sahədə nisbətən çoxtərəfli fəaliyyət 1980-ci illərdən sonra həyata keçirilməyə başlanmışdır (6, 232). Göstərilən sahəyə dair strukturlar qanunvericilik, idarəedici, elmi-tədqiqat və kadr hazırlayan sahələrdən ibarətdir. Müasir dövrdə ətraf mühitin öyrənilməsi, ona nəzarət olunması ayrı-ayrı ölkələr deyil, bütövlükdə yer kürəsinə aid bir problemdir. Odur ki, ekoloji məsələlər BMT-nin və digər beynəlxalq təşkilatların diqqət mərkəzində durmaqla, dünya miqyaslı müzakirə obyektinə çevrilmişdir.

Ekoloji problemlərin həllinə müstəqil respublikamızda da xüsusi önəm verilir. Ölkəmizin geniş sosial-iqtisadi islahatlara söykənən ümumi inkişaf konsepsiyasında ətraf mühitin mühafizəsinin, ekoloji tarazlığın qorunmasının diqqət mərkəzində saxlanılması mühüm yer tutur. Bu işin daha səmərəli və elmi əsaslarla yerinə yetirilməsi üçün 27 yanvar 2003-cü ildə əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir (3).

Bundan başqa, respublikamızda ekologiyaya dair milli proqram təsdiq edilməsi haqda 18 fevral 2003-cü ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı imzalanmışdır.

Ekoloji tarazlığın qorunub saxlanılması təxirəsalınmaz tədbirlərin həyata keçirilməsini tələb etdiyi üçün sonrakı illərdə də bu sahədə çox mühüm tədbirlər həyata keçirilmiş, əhalinin ekoloji mədəniyyətinin yüksəldilməsi ümumdövlət səviyyəsinə qaldırılması qarşıda duran ən ümdə vəzifələrdən birinə çevrilmişdir.

Orta məktəb coğrafiyası kursunda təbiəti mühafizə və şagirdlərin ekoloji tərbiyəsini formalaşdıra biləcək kifayət qədər mövzular var. Bu sahəyə aid proqram və dərsliklərin, elmi-pedaqoji ədəbiyyatların təhlili də göstərir ki, ümumtəhsil məktəblərində istifadə ediləcək kifayət qədər ekoloji bilik mənbəyi var. Lakin bunların bir çoxunun Azərbaycan dilində olmaması ilə yanaşı sinifdənkənar və məktəbdənkənar tərbiyə proqramında müəllimlərin və şagirdlərin təbiəti mühafizə və ekoloji biliklərinə dair sanballı materiallar azlıq təşkil edir. Apardığımız müşahidələr və fərdi söhbətlər də onu göstərir ki, məktəblərin təbiətə qayğıkeş münasibəti kafi deyil, testlər və tapşırıqlarda problemlə bağlı məsələlərə az yer verilməklə yanaşı bu sahədə sistemli iş aparılmır. Valideynlər arasında ekologiya və təbiəti mühafizə ilə əlaqədar aparılan təbliğat işi qeyri qənaətbəxşdir. Nəticə özünü onda göstərir ki, məktəblilər onları əhatə edən ətraf aləmə, təbiətə qayğısız və kor təbii, bir çox hallarda isə qəddarlıqla yanaşırlar.

Məktəblilərin, xüsusən də yeniyetmələrin təbiəti mühafizə üzrə işin sistemli təşkil olunmasında coğrafiya fənninin imkanları genişdir. Ətraf mühitin strukturu və mühitdə gedən proseslərin sərhədləri bir çox hallarda coğrafi sərhədlərə uyğun gəlir. Eyni zamanda müasir dövr ekoloji proseslər ətrafında elmlərin inteqrasiyasına və bu sahədə elmi əməkdaşlığa, xüsusilə ümumi coğrafiyanın inkişafına və





konstruktivləşməsinə də təsir göstərmişdir. Deyilənlər sübut edir ki, coğrafiya fənnində ətraf mühitin mühafizəsi və eləcə də ekologiya sahəsində öyrənilməli məsələlər çox olduğu kimi bu məsələlərin tədrisi ilə bağlı da geniş imkanlara malikdir.

Keçmiş dərsliklərlə müqayisədə Azərbaycan Respublikası ümumtəhsil məktəbləri üçün coğrafiya fənni üzrə təhsil proqramı (kurikulumu) əsasında hazırlanmış müasir dərsliklərdə təbiəti mühafizə ilə bağlı mövzulara daha çox yer verilmişdir. Lakin problemlə bağlı elmi-metodik ədəbiyyatı təhlil edərkən müəyyən etdik ki, coğrafiyanın bu və ya digər kursları üzrə bəzi ölkələrdə geniş tədqiqat işləri aparılmış, Azərbaycan coğrafiyası isə bu vaxta qədər bu mövzu üzrə səthi işlənilmişdir. Dərsliklərdə Azərbaycan respublikasının iqtisadi və fiziki coğrafiyası bütün siniflərdə məntiqi ardıcıllıqla sadədən mürəkkəbə doğru öyrənilsə də, problemlə bağlı məsələlərə geniş yer verilməmişdir. Bu baxımdan fikirlərimizi və dərs nümunələrini ölkəmizlə bağlı mövzular əsasında deməyi məqsədəuyğun hesab edirik. Müasir təhsil proqramı (kurikulumu) əsasında tərtib edilmiş və yeniyetmələrin ekoloji tərbiyəsi baxımından böyük əhəmiyyəti olan VI, VII, VIII sinif coğrafiya dərslikləri yeni məzmunu ilə fərqlənir. Fiziki və iqtisadi coğrafiyanın inteqrasiyasına yönəlmiş bu məzmun şagirdlərdə dünyada baş verən təbii, ictimai-siyasi proses və hadisələri dərk etməyə, təbiət-cəmiyyət əlaqələrinə, insanların müxtəlif xarakterli və miqyaslı fəaliyyətlərinin coğrafi mühitin məskunlaşma və təsərrüfat fəaliyyəti üçün əlverişlilik səviyyəsinin qiymətləndirilməsinə və məntiqi mülahizələr irəli sürməyə imkan verir. Bu dərsliklərdə VI sinifdə "Təbiət və İnsan", VII sinifdə "Yerin canlı təbəqəsi", "İqtisadiyyat və insan", "Yer kürəsində suyun paylanması", VIII sinifdə "Əhali və təsərrüfatın ərazi təşkili", "Ekoloji mühit və onun mühafizəsi" kimi bölmələrin şagirdlərə əhəmiyyəti xüsusi qeyd edilməlidir (8).

Coğrafiyanın tədrisi VI sinifdən başlandığı üçün yeniyetmələrdə təbiəti mühafizə üzrə işin sistemi də təbii olaraq bu kursdan başlanır ki, bu baxımdan fikrimizi və dərs nümunələrini "Təbiət və insan" bölməsi əsasında deməyi məqsədəuyğun hesab edirik.(8, 116)

Bu bölməyə canlı aləm təbəqəsi, bitki örtüyü, torpaq örtüyü, insanın təbiətə uyğunlaşması kimi mövzular aiddir. Həmin bölmənin dərsləri insanın təbiətdən asılılığı, təbiətin mənfi hadisələrinin dəf olunması imkanları, ətraf mühitin yaxşılaşdırılması haqqında diskussiya əsasında qurulur. Diskussiyanın gedişində müəllim məktəblilərin diqqətini bir sıra dünyagörüşü məsələlərinin müzakirəsinə yönəldir; elmi texniki tərəqqi şəraitində insanın təbiətdən asılılığı artır, yoxsa azalır? Bu sualla diskussiyada müəllim müasir təlim metodları ilə əlaqə quraraq fəal idrak, dialoq, inkişafetdirici, əməkdaşlıq və s. təlim prinsiplərinə daha geniş yer verir və bütün bunlar da deyilmiş fikirlər əsasında ümumi nəticəyə gəlməkdə şagirdlərə yaxından kömək edir.

Onlar dərindən dərk edilər ki, insan cəmiyyəti təbiətdən kənarda mövcud ola bilmədiyi kimi həyat və fəaliyyəti onunla qırılmaz bağlıdır. Son zamanlara qədər bəzilərində belə bir təsəvvür var idi ki, elmi-texniki tərəqqi bəşəriyyətə təbiətdən asılı olmağa imkan verəcək, hətta insanlar təbiəti öz bildiyi kimi dəyişdirə biləcəklər. Bu heç də belə deyil. Elmi-texniki tərəqqi ictimai inkişafın təbii şəraitdən asılılığının aradan qaldırılmasına yox, bu asılılığın mürəkkəbləşməsinə və dəyişməsinə gətirib çıxardı. Bəşəriyyət elm və texnikanın inkişafında nə qədər irəli getsə də, həyatın əsası həmişə təbiət olacaqdır.

Bütün bunlarla müəllim şagirdləri çox mühüm dünyagörüşü nəticələrinə gətirib çıxarır: təbiətə doğma münasibət ictimai tərəqqinin zəruri şərtidir. Məktəblilərin fəaliyyətinin təşkilində diskussiya kimi fəal forma sinifdə müstəsna mümkün deyilsə, digər daha adi forma - həmin problem üzrə şagirdlərlə söhbət mümkündür. Söhbətin gedişində müəllim bilikləri fəallaşdırmaq üçün tapşırıqlar verməklə (məsələn, "Təbiət insanlara nə verir, günümüzdə təbii ehtiyatlara insanların münasibəti necədir?") qarşıya qoyulmuş problemi şagirdlərin daha aydın başa düşməsi üçün əlavə suallardan istifadə etməklə söhbətə istiqamət verə bilər.

Beləliklə müzakirənin gedişində məktəblilər öz fikirlərini söyləyir, insan və təbiətin qırılmaz əlaqəsini təsdiq edən konkret misallar gətirirlər. Coğrafi örtük insanın qidalanma mühiti, həyat

vasitələrinin mənbəyi, onun təsərrüfat fəaliyyəti üçün meydandır. Belə ki, təbii şəraitlə insanın səhh arasındakı əlaqə, təbii-iqlim kurortlarının, meşənin, çayın, dənizin şəfaverici təsiri hamıya məlumd Faydalı qazıntıların əldə edilməsi, sənaye istehsalının genişlənməsi təbii ehtiyatların azalmasına, ət mühitin çirklənməsinə səbəb olur. Müəllim sonda onu da qeyd edir ki , şəxsi mülkiyyətin höl sürdüyü ölkəmizdə bu ziddiyyətlər kəskinləşir və ekoloji böhrana gətirib çıxarır.

Nəhayət onu deyə bilərik ki, VI sinif coğrafiya kursunda bünövrəsi qoyulmuş yeniyetmələ təbiəti mühafizəsi üzrə işin sistemi yuxarı siniflərdə digər bölmələr və eləcə də mövzular üzrə sister şəkildə davam etdirilərsə effektli nəticələr verər. Həmçinin yeniyetmə yaş dövründə tədris olun coğrafiya dərslikləri və proqramların təhlili göstərir ki, onlarda məktəblilərin ekoloji tərbiyəsi ba mından xeyli imkanlar mövcuddur. Lakin həmin proqram və dərsliklər üçün ümumi olan aşağıd; qüsurlar ekoloji tərbiyə işinin keyfiyyətinə mənfi təsir göstərir:

a) proqram və dərsliklərdə dünyanın, xüsusilə də ölkəmizin real ekoloji vəziyyəti öz əks tapmamışdır. Ayrı-ayrı regionların kəskin ekoloji problemləri, onları yaradan səbəblər və arad qaldırılması yolları izah edilmir;

b) dərsliklərdə təbiəti mühafizənin əsasən iqtisadi aspekti geniş işıqlandırır ki, bu da məktəb lərdə təbiətə qarşı istehlakçı münasibətinin formalaşmasına səbəb olur.

Güman edirik ki, gələcəkdə yaradılacaq proqram və dərsliklərdə bu nöqsanlar aradan qaldırı caq, coğrafiyanın məzmununun ekologiyalaşdırılmasında diqqət artırılacaq, tədrisi prosesində məktə lilərdə ekoloji təfəkkürün formalaşmasına xidmət edən dərin biliklərin verilməsi ön plana çəki çəkdir. Bunun üçün də respublikamızın ekoloji gerçəkliyi olduğu kimi məktəblilərə çatdırılma bunları doğuran səbəblər və onların aradan qaldırılması yolları göstərilməlidir.

## ƏDƏBİYYAT


1. Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları // Kurikulum, 2010, № 3
2. Ümumtəhsil məktəblərinin VI-XI sinifləri üçün "Coğrafiya" fənn proqramı. Bakı, 2013.
3. "Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətb edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin fərmanı. "Azərbaycan" qəz., 2003, 29 yanvar
4. F.B. Sadıqov, O.Q. Həsənli. Tərbiyəşünaslıq. Bakı: Elm və Təhsil, 2015.
5. A.Y. Bibkin. Orta məktəbdə coğrafiya təliminin metodikası. Bakı: Maarif. 1973.
6. Ş. Göyçaylı. Coğrafiya və coğrafi ekologiyanın problemləri. Bakı: «Ulu» İKF, 2004.
7. N. Seyfullayeva, Y Şabanova, İ. Rakçeyeva. Coğrafiya: Müəllim üçün vəsait. 6-ci sinif. Bakı, 2014.
8. E. Əlizadə, N. Seyfullayeva, Y Şabanova, İ. Rakçeyeva. Coğrafiya: Ümumtəhsil məktəblərinin 6- sinfi üçün dərslik. Bakı, 2013.


**E. Seyido**

## THE FORMATION ENVIRONMENTAL EDUCATION OF ADOLESCENTS IN THE PROCESS OF TEACHING GEOGRAPHY

### SUMMARY

In the article it was about pay attention solution of environmental problems in our republic, protecti importance be the focus of attention pupils ecological balance, organize adolescents' systematic work environmental protection importance in geography. Spoken special place of environmental education classes VI, VII, VIII at curriculum geography lessons in modern education program.

**Э. Сеидо**

## ОРГАНИЗАЦИЯ ЭКОЛОГИЧЕСКОГО ВОСПИТАНИЯ УЧЕНИКОВ В ПРОЦЕССЕ ПРЕПОДАВАНИИ ГЕОГРАФИИ

### РЕЗЮМЕ

В статье обсуждается вопрос решения экологических проблем в республике, о важнос соблюдения экологического равновесия и долге учеников всегда держать во внимании данный вопрос, также о роли географии как предмета в системной охране природы учениками. В статье такж говорится о важности современной учебной программы курикулума на уроках географии в VI, VII, VI классах по экологическому воспитанию.

**Redaksiyaya daxil olub: 23.05.201**